Azərbaycan. - 2025.- 6 sentyabr (№ 189).- S. 5.

# Batumidə 13-cü Beynəlxalq "Caspian Energy Forum"un ilk sessiyası keçirilib

**Gürcüstanın Batumi şəhərində "Caspian Energy Club" və "Forbes Georgia" jurnalının birgə təşkilatçılığı ilə 13-cü Beynəlxalq "Caspian Energy Forum"un ilk sessiyası keçirilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Batumidəki baş konsulluğundan məlumat verilib.**

Bildirilib ki, 13-cü Beynəlxalq "Caspian Energy Forum"un ilk sessiyasının məhz Batumidə keçirilməsi bu ərazinin geostrateji mövqeyi ilə əlaqəlidir. Gürcüstan bu gün nəqliyyat, enerji və infrastruktur sahəsində bir sıra transmilli layihələrin reallaşdırıldığı strateji bölgədir. 13-cü Beynəlxalq "Caspian Energy Forum 2025" isə bu proseslərin analitik qiymətləndirilməsi və siyasi-iqtisadi inkişafı üçün effektiv platformaya çevrilib.

Qeyd olunmalıdır ki, "Caspian Energy Forum" "Caspian Energy Club" tərəfindən təsis edilmiş Xəzər-Qara dəniz regionlarının iqtisadi inkişafında aparıcı sektorları bir araya gətirən beynəlxalq platformadır. Forum enerji, logistika, investisiya və davamlı inkişaf sahələrində regionun aparıcı tədbirlərindən biri hesab olunur.



Forumdan sonra Gürcüstanın Batumi şəhərindəki baş konsulu Fuad Əzizov və "Caspian Energy Club"ın nümayəndə heyəti Acarıstan Muxtar Respublikasının Hökumətinin sədri Sulxan Tamazaşvili və maliyyə və iqtisadiyyat naziri Ednar Nataridze ilə görüşüblər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğu xüsusi vurğulanıb. Tərəflər iqtisadi, humanitar və mədəni sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi imkanlarını müzakirə ediblər. Acarıstan regionunda birgə layihələrin həyata keçirilməsi, turizm və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi əsas mövzulardan biri olub. Tərəflər qarşılıqlı anlaşma və dəstəyə əsaslanan münasibətlərin bundan sonra da inkişaf etdirilməsi üçün səylərin davam etdiriləcəyini bildiriblər.